ədalət.2017.24 oktyabr.s.8.

# ZƏNGİLAN NİSGİLLƏRİ

## (Mənim bayatılarım)



Vətənsiz ötən illər,
Ömürdən itən illər.
Düşmənə ömür verib,
Ömrümdən kəsən illər.

***

Ay ellər, haman ellər,
Taleyi yaman ellər.
Ötən iyirmi dörd ili,
Həsrətdə qalan ellər.

***

"Novbaşı" yaylağın da,
O, "Çimən" oylağın da,
İllərdir viran olur.
Erməni tapdağında.

***

"Gözəllər" yurd yerindi
Suyu yaman sərindi.
Bizə qazılan quyu
Deyəsən çox dərindi.

***

"Soltan Heydər" çeşməsi,
O yanında meşəsi,
İtlərə qismət oldu.
Uzun sözün kəsəsi.

***

"Daşbaşı", "Sürtün çeşmə",
Dumanda ordan keçmə.
İtərdin göz oyunnan,
Yetməzdi sənə kimsə.

***

"Yalqızağac" yadında?!
O başı "Meydannı" da?!
"Əl-barmaq basan" piri
Bir az onnan o yanda.

***

Düşərdin ki, izinə,
Qalxdın "xırman" düzünə,
"Arğın", sonra "Qanlı ağac",
Ot çıxardı dizinə.

***

"Oyuq" dağ qalxır ərşə,
Çatır göylə görüşə.
Erməni ayaq altdan
Qalxdı o yüksəlişə.

***

"Süsən" dağ sıx-sıx meşə,
Qafan onnan enişdə,
"Süsən" də getdi əldən,
Bağrımı deşə-deşə.

***

Məşhur Çinar meşəsi,
Dünyanın ikincisi.
Məhv olub əldən gedir
Vətənimin incisi.

***

"Miyandərə", "Şükrataz",
Gülü-çiçəyi solmaz.
"Şükrataz" Qala yeri,
Düşməndə qoymaq olmaz.

***

Zəngilan bir incidi.
Küsdü mənnən incidi.
Bağışla söyləyirəm,
Artıq bu neçəncidi!

***

Bartazdır mənim kəndim,
Həm imanım, həm dinim.
O ki, düşmən əlində,
Necə susum, kiriyim?!

***

Bartazdan çıxan yollar,
Şaxələnər, qollanar,
Biri Araza tərəf,
Qalanı dağa yollanar.

***

Biz vurmadıq dağlara,
Əbədi oylaqlara.
Arazı nicat sandıq,
Gəldik əcəb çağlara.

***

Üz qoyduq ki, şəhərə,
Həyat döndü zəhərə.
Qaçqın, satqın dedilər
Ümid yoxdu səhərə.

***

Nəhayət bildi hər kəs,
Qınayıb bizi əbəs.
İstəməz uzaq düşə,
Torpağınnan bircə kəs.

***

"Böyüklər" oynadılar,
Şimşək olub çaxdılar.
Neyləsin yazıq millər?!
Onu oda yaxdılar.

***

30 min şəhid verdik.
İgidləri itirdik.
Bu bir nağıldı sanki,
Biz də burda bitirdik.

***

Söyləyək ən qısasın,
Yormayaq özümüzü.
Nə qaçqınıq, nə satqın,
Qurbanıyıq kor baxtın.

**Vasib Hüseynəliyev**
**Zəngilan**